


# Donald Tramp Avropa liderlərinə dərs keçdi

**ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda Avropa liderləri ilə keçirdiyi görüş dünyada müzakirə mövzusu olaraq qalır.**



Ukrayna lideri Volodimir Zelenski, Fransa Prezidenti Emmanuel Makron, İtaliyanın Baş naziri Corcia Meloni, Niderlandın Baş naziri Mark Rutte, Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin də iştirak etdikləri görüşdə əsas müzakirə mövzusu Rusiya-Ukrayna savaşının dayandırılması istiqamətində vacib qərarların qəbul edilməsi olub. Bu görüşdə aparılan müzakirələr, tərəflər arasında razılaşdırılan məsələlərlə bağlı müxtəlif fikirlər, rəylər səsləndirilir.

ABŞ Prezidenti Donald Tramp isə bu savaşı dayandırıb özünün də dediyi kimi cənnətə düşmək istəyir. "Fox News"a telefon müsahibəsində D.Tramp bildirib ki, əsas məqsədi müharibələri dayandırmaq və minlərlə insanın həyatını xilas etməkdir.

Qeyd edək ki, onun diplomatik səyləri sayəsində Hindistanla Pakistan arasında ciddi münaqişənin genişlənməsinin və nüvə müharibəsinin qarşısı alınıb. Həmçinin avqustun 8-də Ağ Evdə Azərbaycanla Ermənistan arasında aparılan sülh sazişinin mətni paraflanıb.

Avropa liderləri ilə keçirilən görüşlə bağlı yayılan fotoşəkillərə diqqət etdikdə isə maraqlı məqam ortaya çıxıb. Donald Tramp özlərini lider adlandıran, "qoca qitə"ni idarə edən rəhbərləri, prezidentləri qarşısında oturdub onlara dərs keçir. Bu həmin liderlərdir ki, ABŞ-dəki sonuncu prezident seçkilərində Donald Trampı deyil, demokratların namizədlərinə dəstək vermişdilər. D.Tramp da, əlbəttə ki, bunu çox yaxşı başa düşür və xatırlayır da...

İndi həmin siyasətçilər Trampdan dəstək istəyirlər. ABŞ Prezidenti isə öz ampluasında qalaraq boynubükük liderlərə yol göstərir.

Bu, əlbəttə ki, Avropa siyasi elitasının çöküşüdür.

Bu, "qoca qitə"nin lider böhranı yaşadığının əyani təzahürüdür. Amma gəlin iki həftə öncə Ağ Ev liderinin İlham Əliyev və Nikol Paşinyanla keçirdiyi görüşlərə diqqət edək. Dünyanın ən güclü dövlətinin rəhbəri Azərbaycan Prezidentini böyük və güclü lider adlandırır. Həmçinin deyir ki, İlham Əliyevlə işləmək şərəfdir.

Bu fikirlər təkcə diplomatik kompliment deyil, həm də Azərbaycan Prezidentinin beynəlxalq legitimliyinin ABŞ səviyyəsində rəsmən təsdiqidir.

Bu, İlham Əliyevin regional təhlükəsizlik memarı kimi qəbul edildiyini göstərir.

Bu fikirlər bir daha təsdiq edir ki, Donald Tramp Azərbaycan Prezidentini dünyanın qlobal liderlərindən biri kimi qəbul edir.

Cəmi bir fakt reallığı əks etdirir - dünya kimin əsl lider, kimin maskalanmış siyasətçi olduğunu aydın şəkildə görür və tanıyır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 19 avqust (№174).- S.6.